Erməni xislətinin törətdiyi faciələr

Ermənilərin Azərbaycan ərazilərinə göz dikməsi o qədər də uzaq tarixi əhatə etmir. Hay toplumu son əsrlər Qərbi Azərbaycan və Qarabağ torpaqlarında planlı şəkildə yerləşdirilmişdir. Gəldikləri gündən yaltaq, ikiüzlü simaları ilə özlərinə yer etmiş, yaşadıqları ərazilərdə zamanla saylarını çoxaltmışlar. Onların Azərbaycana qarşı xəyanəti keçən əsrin əvvəllərindən daha geniş şəkildə özünü büruzə vermişdi. Hələ 1905-ci ilin soyuq qış aylarından Bakıda başlayan qırğınlar may ayında Naxçıvanda və digər ərazilərdə də törədilmişdir. Həmin qırğınlar nəticəsində 10 minə yaxın insan həlak olmuşdur.

Dünya təcrübəsindən məlumdur ki, bütün dövrlərdə gəlmələr aborigenlərə yaxın olmaq, sıx əlaqə yaratmaq üçün onların mədəniyyətinə, məişətinə uyğunlaşmağa çalışmışlar. Ermənilər də həmçinin. Azərbaycan torpaqlarında məskunlaşandan sonra onların ərazi iddiaları daha geniş vüsət almışdır. Bu məqsədlə dəfələrlə azərbaycanlıları öz yurdlarından qovub deportasiyaya məruz qoymuşdular. Soydaşlarımızın Qərbi Azərbaycandan deportasiyası üç mərhələdə aparılıb: 1905-1920, 1948-1953, 1988-1992-ci illərdə.

Ümumilikdə ermənilər azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerləyeksan edərək 30 minə yaxın evi yandırmış, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirmiş, 800 minə yaxın insan yurd-yuvasından didərgin salınmışdır. Sonuncu deportasiyada 1988-ci ildə isə 300 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən doğma yurd-yuvalarını məcburən tərk etmişdir. Məqsədlərinə çatan ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək üçün buradakı qəbiristanlıqları, tarixi-mədəni abidələri, məktəb, xəstəxana və digər binaları darmadağın etmişlər. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 600-dən artıq qəbiristanlığı dağıtmışlar.

Bu ərazilərdə erməni vəhşiliyi hər addımda özünü göstərmişdir. Onlar azərbaycanlıları tarixi yurdlarından qovduqdan sonra əraziləri tamamilə ermənləşdirmək məqsədilə şəhər və kənd adlarını dəyişib, erməni adı ilə əvəzləmişlər. Məsələn, Qəmərli-Artaşat, Arpaçay-Axuryan, Kəvər-Kamo, Basarkeçər-Vardenis, Allahverdi-Tumanyan, Qarakilsə-Sisian, Hamamlı-Spitak, Vedibasar-Ararat adı ilə əvəzlənmişdir. Ümumilikdə isə Ermənistan Sovet Respublikası qurulduqdan sonra burada azərbaycanlılar yaşayan 940 yaşayış məntəqəsindən 698-nin adı Ermənistan Ali Sovetinin qərarı ilə dəyişdirilmişdir. Proses azərbaycanlılar bu respublikanın ərazisindən tam deportasiya edildikdən sonra da davam etdirilmiş, Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın 1991-ci il 9 aprel tarixli fərmanı ilə son 91 azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Tarixin səhifələri vərəqləndikcə, yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpədən səhnələri üzə çıxır.

Ermənilərin azərbaycanlılara qarşı apardıqları ərazi iddiaları, deportasiya planları ötən əsrdə dəfələrlə təkrarlanmış, hər birində də minlərlə soydaşımız qətlə yetirilmiş, zülm-işgəncəyə məruz qalaraq yurd-yuvasından məcburi şəkildə qovulmuşdur. Azərbaycanlıların doğma ocaqlarından deportasiya edilməsindən 30 ildən artıq vaxt keçsə də, hələ də dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar bu ədalətsizliyə göz yumaraq heç bir hüquqi qiymət vermə-mişlər. Daim haqq-ədalətdən, insan hüquq və azadlıqlarının təminatından danışan, reallıqda isə ikili standart mövqeyindən çıxış edən beynəlxalq təşkilatlar, nədənsə, Qərbi Azərbaycandan olan qaçqınlarla bağlı məsələnin üzərindən sükutla keçmişlər.

Hələ 1918-ci ildə Şamaxıda ermənilər tərəfindən öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, erməni cinayətkarları - S.Şaumyan, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə bu şəhərdə təqribən 14-16 min nəfər qətlə yetirilmişdir. Didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olmuşdur. Bəli, bu, erməni qəddarlığının, cinayətlərinin bir hissəsidir.

Qərbi Azərbaycan əhalisi ötən illər ərzində doğma yurd-yuvasını itirməklə yanaşı, mənəvi-psixoloji sarsıntı keçirmişdir. Şahidi olduqları zülm və işgəncələri, yaxınlarının gözləri önündə qətlə yetirilməsini unuda bilməmişlər. Bu gün onların yalnız bir təsəllisi var, ata-baba ocaqlarına qayıdıb, əzəli yurdlarında daimi və əbədi yaşamaq istəyidir.

Ramidə YAQUBQIZI,
"Respublika".

Respublika .- 2024.- 17 dekabr (№ 278). - S.8.